Azərbaycan Texniki Universitetinin
Elmi Şurasının "__" ________ 20__ il
tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
(protokol № __)

# AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİNDƏ TƏHSİLALANLARIN UNİVERSİTETDAXİLİ İNTİZAM QAYDALARI

## 1. Ümumi müddəalar

1.1."Azərbaycan Texniki Universitetində Təhsilalanların Universitetdaxili İntizam Qaydaları" (bundan sonra - Qaydalar) Azərbaycan Texniki Universitetində (bundan sonra - AzTU) təhsil alan bütün təhsilalanların AzTU daxilində ümumi davranışını və tədris prosesi iştirakçıları ilə qarşılıqlı münasibətlərini tənzimləyən normalar məcmusudur.

1.2. Bu Qaydalar Azərbaycan Respublikasının Konstitusiyasına, "Təhsil haqqında" Qanununa, AzTU Nizamnaməsinə, AzTU-nun Etik Davranış Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

1.3. Bu Qaydaların tətbiqində əsas məqsəd təhsilalanlar arasında tədris intizamını möhkəmləndirmək və onlarda tədris prosesinə şüurlu yanaşmanı formalaşdırmaqdır.

1.4. Bu Qaydalar AzTU-da təhsil alan bütün təhsilalanlar üçün məcburidir.

1.5. Bu Qaydaların pozulmasına görə təhsilalanlara intizam tənbehi tətbiq edilir.

1.6. Bu Qaydaların tətbiqi zamanı aşağıdakı prinsiplər əsas götürülür:

1.6.1. Bərabərlik prinsipi: intizam qaydalarını pozmuş təhsilalanlar irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, maddi vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq intizam məsuliyyətinə cəlb olunurlar.

1.6.2. Ədalət prinsipi: intizam qaydalarını pozmuş təhsilalana tətbiq edilən intizam tənbehi Azərbaycan Respublikasının qanunvericiliyinə, beynəlxalq hüquq normalarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə zidd olmamalı, pozuntunun xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına uyğun olmalıdır.

1.6.3. Humanizm prinsipi: intizam qaydalarını pozmuş təhsilalana tətbiq edilən intizam tənbehi insan ləyaqətini alçaltmaq məqsədi daşıya bilməz.

## 2. İntizamın pozulmasına görə tətbiq edilən tənbeh tədbirləri

2.1. Xəbərdarlıq: Təhsilalana hərəkət və davranışlarında daha diqqətli olması vacibliyinin şifahi və ya yazılı şəkildə bildirilməsidir.

2.2. Töhmət: Təhsilalana hərəkət və davranışlarında yol verdiyi qüsurlara görə töhmət verilməsinin yazılı şəkildə bildirilməsidir.

2.3. Sonuncu xəbərdarlıqla şiddətli töhmət: Təhsilalana hərəkət və davranışlarında yol verdiyi intizam pozuntularına görə sonuncu dəfə xəbərdarlıq edilməklə şiddətli formada töhmət verilməsinin yazılı şəkildə bildirilməsidir.

2.4. Universitetdən xaric edilmə: Təhsilalana hərəkət və davranışlarında yol verdiyi ciddi intizam pozuntularına görə AzTU-dan xaric edilməsidir.

## 3. Xəbərdarlığın verilməsi halları

3.1. Başqalarına qarşı kobudluq və hörmətsizlik etmək;

3.2. Başqalarını narahat edəcək şəkildə səsini yüksəltmək, səs-küy salmaq, ətrafı çirkləndirmək, AzTU-nun əmlakına yüngül ziyan vurmaq;

3.3. AzTU-nun səlahiyyətli şəxsləri tərəfindən verilən universitetdaxili tapşırıqlara üzürlü səbəb olmadan vaxtında əməl etməmək;

3.4. İclaslar və tədbirlər zamanı zallarda müəllimlər və qonaqlar üçün ayrılmış yerləri tutmaq;

3.5. Yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntularına yol vermək.

## 4. Töhmət tənbehinin tətbiq edilməsi halları

4.1. AzTU-da divarlara və əşyaların üzərinə yazı yazmaq, işarələr qoymaq, şəkil çəkmək, AzTU-nun əmlakına ziyan vurmaq;

4.2. AzTU-nun səlahiyyətli şəxsləri tərəfindən onlara verilən suallara və göndərilən sorğulara məqsədli şəkildə natamam və ya səhv cavablar vermək;

4.3. AzTU-nun səlahiyyətli şəxslərindən icazə almadan müəyyən edilmiş yerlərdən kənarda elanlar asmaq;

4.4. AzTU-da mühazirə, seminar, konfrans, laboratoriya işlərinin həyata keçirildiyi otaqları korlamaq;

4.5. AzTU-nun səlahiyyətli şəxslərindən icazə alınmadan keçirilən tədbirlərdə icazəsiz olduğunu bildiyi halda iştirak etmək;

4.6. İmtahanlarda köçürmək, köçürməyə cəhd etmək və köçürməyə şərait yaratmaq;

4.7. İmtahanlarda köçürən təhsilalanların imtahan otağından uzaqlaşdırılmasına mane olmaq;

4.8. Mühazirə və məşğələ dərslərində mobil telefonlardan dərsin tələb etmədiyi vaxtlarda istifadə etmək;

4.9. Yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntularına yol vermək.

**5. Sonuncu xəbərdarlıqla şiddətli töhmət tənbehinin tətbiq edilməsi halları**

5.1. İclaslar və tədbirlər zamanı zallarda xəbərdarlıq edilməsinə baxmayaraq müəllimlər və qonaqlar üçün ayrılmış yerləri tutmaq;

5.2. AzTU ərazisində müəyyən edilmiş yerlərdən kənarda tütün məhsulları və elektron siqaret çəkmək;

5.3. İntizam qaydalarının pozulması ilə bağlı aparılan araşdırmaya mane olmaq;

5.4. AzTU-nun səlahiyyətli şəxslərindən icazə almadan elanlar və digər yazılı məlumatlar asmaq və ya yaymaq;

5.5. AzTU-nun səlahiyyətli şəxslərinin icazəsi ilə asılmış elanları və digər yazılı məlumatları qoparmaq, dəyişdirmək, qaralamaq və ya yararsız hala salmaq, AzTU-nun əmlakına ciddi ziyan vurmaq;

5.6. Buraxılış işləri və dissertasiyalarda müəllif hüquqlarını kobud şəkildə pozmaq;

5.7. AzTU-nun səlahiyyətli şəxslərindən icazə almadan, universitetdə müxtəlif tədbirlər təşkil etmək;

5.8. AzTU-ya qanunla qadağan olunmuş nəşrləri gətirmək, universitetdə onları çoxaltmaq və yaymaq;

5.9. Dərslərin,, imtahanların, elmi-mədəni tədbirlərin təşkilinə mane olan və onların gedişini pozan hərəkətlər etmək;

5.10. Yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntularına yol vermək.

**6. Universitetdən xaric edilmə tənbehinin tətbiq edilməsi halları**

6.1. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş dövlətin quruluşu, idarəetmə forması və digər əsas xüsusiyyətlərindən hər hansı birinin dəyişdirilməsi və ya ləğv edilməsi məqsədi ilə başqa şəxslər tərəfindən universitetin daxilində və ya xaricində təşkil olunan yığıncaq, nümayiş və buna bənzər fəaliyyətlərdə iştirak etmək, Respublikanın mənəvi varlığını şifahi və ya yazılı şəkildə təhqir etmək;

6.2. AzTU daxilində və xaricində universitet əməkdaşlarını hədələmək, onların şərəf və ləyaqətini təhqir edən, alçaldan yazılı və ya şifahi ifadələr işlətmək;

6.3. Təkbaşına və ya qrup şəklində universitetin müəllim və rəhbər işçilərinin qəbul etdikləri qərarlara böhtan ataraq əks yazılar yazmaq, təhsilalanlar arasında bu istiqamətdə təbliğat aparmaq və buna bənzər fəaliyyətlər göstərmək;

6.4. AzTU-da siyasi, dini və ideoloji məqsədlər üçün planlı şəkildə tədbirlər keçirmək, yazılı və ya şifahi təbliğat aparmaq;

6.5. AzTU-da irq, etnik mənsubiyyət, dil, din və məzhəb ayrı-seçkiliyinə yol açan fəaliyyətlər göstərmək;

6.6. AzTU əməkdaşlarına və təhsilalanlara fiziki güc tətbiq etmək, onları hədə-qorxu yolu ilə universitetdən kənara çıxarmaq və vəzifələrini icra etmələrinə mane olmaq və ya təhsilalanları belə davranışlara məcbur etmək;

6.7. AzTU-da spirtli içki içmək və ya universitetə içkili vəziyyətdə gəlmək, narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə etmək, onları təbliğ etmək və ya yaymaq;

6.8. AzTU-da əməkdaşların, təhsilalanların, qonaqların, eləcə də universitetin əşyalarını və əmlakını oğurlamaq, eləcə də ciddi ziyan vurmaq;

6.9. AzTU əməkdaşlarını müxtəlif yollarla (rüşvət, hədiyyə, tapşırıq və s.) ələ almaq məqsədi daşıyan davranışlara yol vermək;

6.10. AzTU-nun informasiya bazasına girərək özünün və ya başqasının lehinə və ya əleyhinə qanunsuz əməliyyatlar aparmaq;

6.11. AzTU-ya aid olan hər hansı bir sənəddə imzanı saxtalaşdırmaq, universitet sənədlərində dəyişikliklər etmək, başqalarını buna təhrik etmək, universitetdən aldığı özünə aid sənədi istifadə üçün başqa birinə vermək və ya başqasının sənədlərini öz adından istifadə etmək;

6.12. İmtahan suallarının bir qismini və ya bütövlükdə hamısını, qeyri-qanuni yolla əldə etmək;

6.13. Bilərəkdən öz əvəzinə başqasının imtahan verməsinə şərait yaratmaq və ya başqasının əvəzinə imtahan vermək;

6.14. İmtahanlarda hədə-qorxu gələrək köçürmək və ya köçürməyə cəhd etmək;

6.15. AzTU-ya məxsus olan daşınan və daşınmaz əmlakı, inventar və avadanlıqları yararsız hala salmaq və informasiya sisteminə ciddi zərər vurmaq;

6.16. AzTU-nu və ya onun hər hansı bir qurumunu təmsil etmək səlahiyyəti olmadığı halda özünü səlahiyyətli şəxs kimi göstərərək bəyanatlar vermək, iclas və tədbirlərdə iştirak etmək;

6.17. AzTU binaları və ərazisində qadağan olunmuş yerlərə daxil olmaq;

6.18. AzTU-da icazəsiz açıq və ya gizli təşkilatlar qurmaq;

6.19. Yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntularına yol vermək.

## 7. İntizam pozuntusu təkrar edildiyi hallarda tətbiq edilən tənbeh tədbiri

Təhsilalan eyni intizam pozuntusunu təkrar törətdikdə, ona bu Qaydalarla müəyyən edilmiş növbəti daha ağır intizam tənbehi tətbiq edilir.

## 8. Vurulmuş ziyanın aradan qaldırılması

Təhsilalan AzTU-ya məxsus olan daşınan və daşınmaz əmlaka, o cümlədən, inventar və avadanlıqlara, mal və materiallara, yaşıllıq zolaqlarına, informasiya resurslarına və s. əşyalara ziyan vurduqda bu Qaydalarla müəyyən olunmuş tənbeh tədbirlərinin tətbiqi ilə yanaşı, vurulmuş ziyanın həmin şəxs və ya şəxslər tərəfindən aradan qaldırılması da təmin edilir.

## 9. İmtahanda baş verən intizam pozuntusu halları

İmtahanlarda baş verən intizam pozuntusu hallarında intizam tənbehinin verilməsi ilə yanaşı, imtahan nəticələri də ləğv edilir.

## 10. İntizam pozuntusu hallarında araşdırmanın başladılması və aparılması

10.1. Təhsilalan intizam pozuntusu törətdikdə ərizə əsasında və ya universitetin səlahiyyətli şəxslərinin təqdimatı əsasında həmin intizam pozuntusu ilə bağlı araşdırma başladılır.

10.2. Araşdırma bu Qaydaların 12-ci bəndi ilə müəyyən olunmuş qaydada təşkil edilmiş fakültə intizam komissiyası tərəfindən aparılır.

10.3. AzTU-nun bütün əməkdaşları və təhsilalanları araşdırmanı aparan əməkdaşlara zəruri məlumatları, sənədləri verməyə və digər müvafiq köməkliyi göstərməyə borcludurlar.

10.4. Araşdırmada baş verən intizam pozuntusunun mahiyyəti, nə vaxt, harda və kimlərin iştirakı ilə baş verməsi, təqsirləndirilən şəxslərin müəyyən edilməsi kimi məsələlərə baxılır.

10.5. Araşdırmaya intizam pozuntusunun baş verməsindən sonrakı ilk iş günündə başlanır və proses ən geci 15 gün ərzində başa çatdırılır.

10.6. Araşdırmanın bu müddət ərizndə başa çatırılması mümkün olmadıqda araşdırmanı aparan əməkdaşlar səbəbləri göstərməklə əsaslandırılmış qaydada əlavə vaxt tələb edə bilər.

10.7. Xüsusi hallarda rektor bəzi intizam pozuntularının araşdırılmasını birbaşa AzTU-nun intizam komissiyasına göndərə bilər.

## 11. Haqqında araşdırma aparılan təhsilalanın müdafiə hüququ

11.1. Araşdırma aparan əməkdaş, haqqında araşdırma başladılan təhsilalanı törətdiyi intizam pozuntusu ilə bağlı aparılan müzakirənin təşkil ediləcəyi gün, saat və yerlə bağlı əvvəlcədən məlumatlandırır.

11.2. Təhsilalana müzakirə zamanı heç bir təsir göstərilmədən özünü müdafiə etmə imkanı verilir.

11.3. Müəyyən edilmiş qaydada heç bir üzürlü səbəb olmadan müzakirəyə gəlməyən təhsilalan müdafiədən imtina etmiş sayılır və haqqında toplanmış məlumatlar əsas götürülərək ona bu Qaydalarla müəyyən edilmiş intizam tənbehi verilir.

## 12. Fakültə intizam komissiyaları və onların təşkili

12.1. İntizam pozuntularının araşdırılması, bu pozuntuları törətmiş təhsilalanlar haqqında müvafiq intizam tənbehinin verilməsi haqqında qərarın qəbul edilməsi məqsədilə rektorun əmri ilə hər bir fakültədə fakültə dekanının sədrliyi ilə 5 nəfərdən ibarət fakültə intizam komissiyası yaradılır. Komissiyanın tərkibinə fakültə dekanı ilə yanaşı, dekan müavinlərindən biri, fakültənin nəzdindəki kafedralardan birinin müdiri, fakültənin müəllimlərindən biri və fakültənin təhsilalanlarının həmkarlar təşkilatının sədri daxil edilir.

12.2. Fakültə intizam komissiyasının iclasları fakültə dekanının qərarı ilə keçirilir və müvafiq qaydada protokollaşdırılır.

12.3. Komissiyanın qərarları açıq səsvermə və sadə səs çoxluğu ilə qəbul edilir.

## 13. Fakültə intizam komissiyasında intizam tənbehinin verilməsi haqqında qərarın müzakirəsi və qəbul edilməsi

13.1. Araşdırmanı aparan əməkdaşlar araşdırmanın nəticəsini əks etdirən əsaslandırılmış yekun rəyində törədilən intizam pozuntusuna bu Qaydalara uyğun olaraq hansı intizam tənbehinin verilə biləcəyini qeyd edirlər.

13.2. Fakültə intizam komissiyası tərəfindən intizam tənbehi qərarının verilməsi zamanı aşağıdakılar nəzərə alınmalıdır:

- törədilən hadisənin ağırlıq dərəcəsi;
- vurulan ziyanın dəyəri;
- hadisənin baş vermə faktı və halları;
- intizam tənbehini yüngülləşdirən və ağırlaşdıran hallar;
- hadisənin qəsdən və ya ehtiyatsızlıqdan törədilməsi;
- təhsilalanı xarakterizə edən amillər;
- hadisənin baş verməsinə təsir edən səbəb və şərait.

13.3. Fakültə intizam komissiyası təhsilalanın özünümüdafiəsini təşkil etdikdən sonra, yekun rəyə münasibət bildirir. Komissiya yekun rəyi qəbul, rədd, təkrar araşdırma və ya təklif edilən intizam tənbehini dəyişdirməklə qəbul edə bilər.

13.4. Komissiyanın qəbul etdiyi qərar fakültə dekanı tərəfindən universitet rektoruna təqdim edilir. Rektor təqdimatla razı olduğu halda, təhsilalana müvafiq intizam tənbehinin verilməsi haqqında əmr imzalayır.

13.5. AzTU-nun rektoru zəruri hesab etdiyi hallarda dekan tərəfindən göndərilən təqdimatın universitet intizam komissiyasında müzakirəyə çıxarılması haqqında tapşırıq verə bilər.

13.6. AzTU-nun intizam komissiyası dekanın təqdimatını müzakirə etdikdən sonra rektora komissiyanın qəbul etdiyi qərarı əks etdirən müvafiq təqdimat göndərir.

13.7. Rektor AzTU-nun intizam komissiyasının təqdimatına əsasən təhsilalana hər hansı intizam tənbehinin verilib-verilməməsi haqqında yekun qərar qəbul edir.

## 14. İntizam tənbehinin verilməsi haqqında qərarın tətbiq edilməsi

Təhsilalan haqqında verilmiş intizam tənbehi rektorun intizam tənbehinin verilməsi ilə bağlı müvafiq əmr imzaladığı tarixdən qüvvəyə minir.

## 15. İntizam tənbehinin bildirilməsi

15.1. Rektorun intizam tənbehi haqqında müvafiq əmrinin surəti fakültə dekanı tərəfindən haqqında intizam tənbehi verilən təhsilalana təqdim olunur.

15.2. AzTU-dan xaric edilmə tənbehi verildikdə, müvafiq əmrin surəti əlavə olaraq aşağıdakı ünvanlara da təqdim olunur:

- aidiyyəti hərbi komisarlığa;
- xarici ölkə vətəndaşı olan təhsilalanlarla bağlı təhsilalanın vətəndaşı olduğu ölkənin müvafiq ali təhsil qurumuna və ya həmin ölkənin səfirliyinə.

## 16. Apelyasiya hüququ

16.1. Təhsilalan fakültə intizam komissiyasının qəbul etdiyi qərardan 3 iş günü ərzində AzTUnun rektoruna apelyasiya ərizəsi vermək hüququna malikdir. Rektor apelyasiya ərizəsini qəbul etdikdən sonra baxılması üçün AzTU-nun intizam komissiyasına göndərir.

16.2. AzTU-nun intizam komissiyası apelyasiya ərizəsini müzakirə etdikdən sonra rektora müvafiq təqdimat göndərir. Rektor həmin təqdimat əsasında təhsilalanın iddiasının təmin edilib-edilməməsi haqqında qərar qəbul edir.

## 17. Yekun müddəalar

17.1. Bu Qaydalar AzTU-nun Elmi Şurasının qərarı ilə təsdiq edilir.

17.2. Qaydalara əlavə və dəyişikliklər AzTU-nun Elmi Şurasının qərarı ilə edilir.